PARADIGMA, No.4, 2025, səh.70-76
https://doi.org/10.30546/30015.2025.01.4.1032

# AZƏRBAYCANDA SOVET REPRESSİYALARI VƏ SÜRGÜNLƏR

**N.A. Rəhmanova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: nerminhuseynzada510@gmail.com

**Xülasə.** Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, yeni rejim ilk öncə siyasi rəqibləri aradan götürmək, daha sonra isə cəmiyyətdə hər hansı müstəqil düşüncə və fəaliyyət imkanlarını məhdudlaşdırmaq məqsədilə totalitar idarəetmə rejiminin metodlarını tətbiq etdi. Bu siyasətin ən kəskin təzahürü isə 1930-1950-ci illərdə geniş vüsət almış kütləvi repressiyalar və sürgünlər oldu. Sözü gedən repressiyaların hədəfinə yalnız dövlət xadimləri və siyasətçilər deyil, həm də elm, mədəniyyət və təhsil sahəsində fəaliyyət göstərən ziyalılar, kənd təsərrüfatı ilə məşğul olan sadə insanlar və bütöv ailələr düşdü. Onlara əsasən "xalq düşməni", "antisovet ünsür" və ya "millətçi" damğası ilə vurularaq əsassız ittihamlara həbs edilirdi. Minlərlə insan ya güllələnmiş yada ki Sibir və Orta Asiya bölgələrinə sürgün edilmişdir.

**Açar sözlər:** Sovet, Azərbaycan, "Qırmızı terror", repressiya, Stalin.

## Giriş

1920-ci il aprelin 28-də bolşeviklərin Azərbaycan Xalq Cümhuriyyətini devirməsindən sonra ölkədəki artıq gərgin olan siyasi və ictimai durum daha da çətinləşdi. Hakimiyyətə gələn yeni rejim mövqeyini möhkəmləndirmək üçün sərt və radikal tədbirlər görməyə başladı. Sovet idarəçiliyi tam qurulduqdan sonra da gözlənilən yumşalma baş vermədi, əksinə, rejim daha sərt və basqıcı üsullarla fəaliyyətini davam etdirdi. "Azorbaycan Xalq Cümhuriyyəti işğal olunduqdan sonra 1922-ci il- de SSRİ adlandırılan dövlətin ərazisinə qatıldı. Nikita Xuruşovun dövründə yaradılmış komissiyanın məlumatına əsasən, 1921-1953-cü illərdə SSRi-də 25-26 milyon insan repressiyaya məruz qalıb. 17 milyon insanın cezasını QULAQ düşərgəsində çəkdiyi, onlardan onda birinin oradaca öldüyü qeyd olunur.Repressiya olunanlardan 7 milyonunun mülkü müsadirə edilib, özləri isə sürgün olunub" [5, s.7]. Repressiya illərində Azərbaycanda yüz mindən artıq ziyalı, hərbçi, elm və mədəniyyət xadimi, müəllim, yazıçı və din xadimi Sibirə, Qazaxıstana və uzaq bölgələrə sürgün olunmuşdu. Məlum bir həqiqətdir ki, əhalinin hər min nəfərinə düşən qurbanların sayına görə Azərbaycan sovet respublikaları arasında ilk sırada yer alırdı. Əgər 1920-ci illərdə əsasən "əksinqilabçı" damğası ilə cümhuriyyət tərəfdarları, müsavatçılar və ittihadçılar hədəfə alınaraq həbs edilir və Solovki adalarına göndərilirdisə, 1937-ci il repressiyaları daha amansız olmuşdu. Bu dəfə insanlara "xalq düşməni", "pantürkist", "panislamist" və ya "sui-qəsdçi" kimi ittihamlar irəli sürülərək onların həyatına son qoyulurdu. "İnsanların "əksinqilabçı", "trotskiçi", "casus", "millətçi", "üsyançı" kimi müxtəlif ittihamlarla kütləvi şəkildə məhv edilməsi Stalinin, Beriyanın və

onların əlaltılarının bütün SSRİ-də həyata keçirdikləri dəhşətli bir siyasət olmuşdur. Repressiya illərində SSRİ-də ümumilikdə 1.575.259 adam həbs edilmişdir. Onlardan 173.382 nəfəri guya "əksinqilabi” iş apardığına görə cəzaya məruz qalmışdır, 1.344.923 nəfər məhkum edilmiş, 681.692 nəfər isə güllələnmişdir” [1, s.10]. 30 ilə yaxın davam edən repressiyalar Azərbaycan tarixinin ən faciəvi hadisələrindən olmuşdur. Xüsusəndə statistik məlumatlara əsasən, Azərbaycanda ağır demoqrafik dəyişikliklərə səbəb olmuşdur. “Azərbaycanda ümumilikdə 1930-1940-cı və 1950-ci illərin əvvəllərində 80 mindən çox adam repressiya edilib ki, bunun da 29 min nəfəri ziyalılardır. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilmişdir. Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb, onlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.” [1, s.10]. 1920–1930-cu illərdə SSRİ-də terror siyasəti dövlət idarəçiliyinin mühüm alətlərindən birinə çevrilmişdi. Azərbaycanda da bu siyasət kəskin şəkildə həyata keçirilirdi. 1937-ci ildə Azərbaycan SSR XDİK nəzdində fəaliyyət göstərən xüsusi “üçlük” minlərlə insanı siyasi ittihamlarla məhkum etmişdi. Həmin ilin məlumatlarına görə, 2.846 nəfər azadlıqdan məhrum edilmiş, 2.215 nəfər isə güllələnmişdir. Təkcə antisovet təbliğatında günahlandırılan 1.108 nəfərə ən ağır cəza – güllələnmə hökmü çıxarılmışdır. Ümumilikdə isə xüsusi üçlük həmin il 10 mindən çox şəxsin işinə baxaraq qərar qəbul etmişdi.

**Tədqiqat.** Keçmişdə qalmış sovet totalitar sistemi insanların azad düşüncə, söz və məlumat əldə etmək hüquqlarını ciddi şəkildə məhdudlaşdırmışdır. 1937-ci ildə baş verən hadisələr isə bunun ən bariz göstəricilərindən biridir. 1937-ci il oktyabrın 12-dən 13-nə keçən gecə Azərbaycan üçün unudulmaz bir faciə yaşandı. Həmin gecə ölkənin məşhur yaradıcı ziyalıları – Əhməd Cavad, Bəkir Çobanzadə, Böyükağa Talıblı, Vəli Xuluflu, Məmmədkazım Ələkbərli, Hənəfi Zeynallı və Xalid Səid Xocayev güllələnərək həyatlarından məhrum edildilər. Haqqında bəhs olunan repressiyalar isə 3 şəxsin layihəsi əsasında həyata keçirilmişdir. Həmin şəxslər isə Mikoyan, Yejovun, Molotov olmuşdur. “Kütləvi repressiyaları bilavasitə həyata keçirən dövlət təhlükəsizliyi orqanlarının rəhbərləri üçün Azerbaycan SSR "xalq düşmənlərinin" ən böyük sığınacaq yeri idi: müsavatçılar, itihadçılar, "Hümmət"çilər, nərimanovçular, din xadimləri, panislamistlər, pantürkistlər... bir sözlə, hər bir azərbaycanlı ailəsi. Buna görə də Azərbaycan üzrə "üçlüyün" başında SSRİ prokuroru A.Y. Vışinskinin müavini Matuleviç dururdu. Məqsəd damarlarından millət qanı axan bütün soydaşlarımızı məhv etmək idi. O cümlədən Mir Cəfər Bağırovu da. 1937-ci ilde SSRİ prokuroru müavininin edə bilmədiyini 1956-cı ildə SSRİ prokurorunun özü Bakıda həyata keçirdi. 1937-ci ilin məhkəmələrinin davamı olaraq Mir Cəfər Bağırova qondarma ittihamlar əsasında "güllələnmə" hökmü oxundu” [3, s.14]. 1920-1930-cu illərdə Ermənistanda yaşayan azərbaycanlı əhaliyə

qarşı sistemli şəkildə zorakı tədbirlər həyata keçirilirdi. Bu gərginlik 1925-ci ilin əvvəllərində elə bir həddə çatmışdı ki, Dərələyəz qəzasının azərbaycanlı sakinləri SSRİ Xalq Komissarları Sovetinin sədri A. Rıkova və Azərbaycan SSR Xalq Komissarları Sovetinin rəhbəri Mir Cəfər Bağırova müraciət ünvanlayaraq baş verən hadisələrdən şikayət etmişdilər. Məsələni araşdırmaq üçün həmin ilin may ayında Bala Əfəndiyevin iştirakı ilə üç nəfərdən ibarət komissiya yaradılmışdı. Komissiya Dərələyəzin bir sıra kəndlərində – Qurban Kəsilən, Cğatay, Daşaltı, Göyərçin, Qayalı, Çarxılı Gümüşxana, İstisu, Kotanlı, Qabaxlı, Zeytə Çatma, Qurdqulaq, Göykənd, Çaykənd, Çul, Tarp, Terp, Ceyranlı, Gendərə, Qaçiqut, Güneyvəng, Ələyəz, Alxan Pəyəsi və Hostunda vəziyyəti yerindəcə öyrənmişdi. Araşdırma nəticəsində məlum olmuşdu ki, azərbaycanlıların köçürülməsi hüquqi və sosial baxımdan əsaslandırılmamış, əksinə, çox vaxt zorakılıq və təzyiq yolu ilə icra edilmişdir. Hətta köçməyə etiraz edən şəxslərin həbs olunması, qonşu erməni kəndlərinin əhalisinin isə türk kəndlərinə hücum etməsi faktı hesabatda xüsusi olaraq vurğulanmışdı. Ümumilikdə, 1921–1936-cı illərdə Ermənistana xarici ölkələrdən 42 min ermənin gətirilərək məskunlaşdırıldığı, onlara torpaq sahələrinin ayrıldığı və məşğulluqlarının təmin edildiyi qeyd olunur. Bu proses yerli azərbaycanlıların sıxışdırılması və zorla köçürülməsi ilə paralel şəkildə aparılmışdır. 1930-cu il yanvarın 3-də Zaqafqaziya Ölkə Komitəsi “antisovet ünsürlərin tərksilah edilməsi” adı altında genişmiqyaslı əməliyyatların keçirilməsi barədə qərar qəbul etmişdi. Qərarın icrasını təmin etmək üçün xüsusi repressiya strukturları – “üçlüklər” və “beşliklər” təşkil olunmuşdu. Ermənistan hakimiyyəti isə bu qərardan istifadə edərək azərbaycanlı əhaliyə qarşı kütləvi təzyiq və təqib kampaniyasını daha da gücləndirmişdi. Elə həmin ilin fevralında ÜİK(b)P MK tərəfindən “Kəndlərdə partiyanın sinfi siyasətinin düzəldilməsi və qolçomaqların sinif kimi tamamilə məhv edilməsi” haqqında qəbul edilən qərarın icrası Ermənistan ərazisində də ciddi nəticələr doğurmuşdu. Bu siyasətin tətbiqi adı altında minlərlə azərbaycanlı ailəsi öz tarixi yurdlarından zorla çıxarılaraq müxtəlif bölgələrə sürgün olunmuşdu. Beləliklə, sovetləşmə prosesinin əsas hədəflərindən biri kimi azərbaycanlıların sosial-siyasi həyatdakı mövqeləri zəiflədilmiş və onların tarixi torpaqlarında demoqrafik vəziyyət süni şəkildə dəyişdirilmişdi. 1930-cu illərin əvvəllərində Ermənistanda azərbaycanlı əhali əsasən kənd yerlərində məskunlaşmışdı; İrəvan şəhəri istisna olmaqla, şəhər əhalisi çox az idi. Bu səbəbdən kəndli azərbaycanlılar tez-tez “qolçomaq” və “kulak” ittihamları ilə repressiyalara məruz qalırdılar. Repressiyalardan qaçmaq üçün 1930-cu ilin əvvəllərindən başlayaraq bir çox azərbaycanlı gizli yollarla Türkiyə və ya İrana keçərək özlərini təhlükədən qorumağa çalışırdılar. Sovetlər İttifaqında aparılan kütləvi kollektivləşmə tədbirləri bu dövrdə xüsusilə Ermənistanda yaşayan azərbaycanlılar üçün daha sərt tətbiq olunurdu. Varlı azərbaycanlıların mal-qarası və torpaqları

əlindən alınır, özləri “qolçomaq” damğası ilə Qazaxıstan və Sibir kimi uzaq bölgələrə sürgün edilirdi. Xüsusilə Türkiyə və İran sərhədlərinə yaxın kəndlər bu repressiyaların ən sərt formalarına məruz qalırdı. Amansız tədbirlərə qarşı etiraz olaraq Zəngibasar, Vedibasar, Qəmərli və Qarabağlar rayonlarındakı azərbaycanlı kəndləri silsilə üsyanlar qaldırmışdılar. Bu hadisələr göstərirdi ki, yerli əhali öz torpaqlarında zorakılıq və sosial-siyasi təzyiqlərə qarşı müqavimət göstərməkdə israrlıdır. Ermənistanda antisovet və əksinqilabçı elementlərdən “təmizləmə” adı altında həyata keçirilən milli ayrıseçkilik siyasəti nəticəsində azərbaycanlıların dövlət strukturlarında təmsilçiliyi demək olar ki, tamamilə məhv edilmişdi. Repressiyalar o həddə çatmışdı ki, Moskva belə, “parçala və hökm sür” siyasətini həyata keçirərək Sibiri türk xalqlarının zindanına çevirən hökumət, Ermənistanda azərbaycanlıların diskriminasiyaya məruz qaldığını açıq şəkildə etiraf etmişdi. 1936-cı ilin noyabrında SSRİ Mərkəzi İcraiyyə Komitəsi Millətlər Şurasının rəyasət heyəti “Ermənistanda milli azlıqlarla işin vəziyyəti” məsələsini müzakirə etmişdi. Qəbul edilən qərarda bildirilirdi ki, Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsi nəzdində fəaliyyət göstərən milli azlıqlar üzrə iş şöbəsi əsassız olaraq ləğv edilmişdir. Həmçinin, milli azlıqların mədəni və təsərrüfat ehtiyaclarının yetərincə təmin olunmadığı, mərkəzi aparatlara milli kadrların hazırlanması, milli rayonların türk və kürd kadrları ilə təmin edilməsi, eləcə də dövlət işlərinin yerli dillərdə aparılmasının kifayət qədər təmin edilmədiyi vurğulanırdı. Qərarda SSRİ Mərkəzi İcraiyyə Komitəsi Millətlər Şurasının rəyasət heyəti Ermənistan SSR Mərkəzi İcraiyyə Komitəsinə tapşırmışdı ki, qısa müddət ərzində milli azlıqlarla iş şöbəsini bərpa etsin, türk və kürd əhalisinin yaşadığı rayonların idarəetməsini milli kadrlarla təmin etsin, milli azlıqlar arasında kadr hazırlığını gücləndirsin və milli kolxozlarda torpaq sahələrinin əbədiliklə yerli əhalinin istifadəsinə verilməsini təmin etsin. 1937–1938-ci illərdə Azərbaycan SSR-də aparılan kütləvi repressiyalar əsasən 1937-ci ildə Azərbaycan Kommunist Partiyasının VI mart Plenumu tərəfindən başlanmışdır. Bu repressiyaların əsas hədəfi ölkənin rəhbər partiya və dövlət kadrları olmuşdur. Xüsusilə, 1920-ci ilin fevralında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin üzvləri seçilmiş və aprel işğalından sonra ilk sovet hökumətində yer almış R.Axundov, Ə.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə, M.D.Hüseynov və digərləri “xalq düşməni” kimi ittiham edilərək edam edilmişlər. Həmçinin, ölkənin iqtisadiyyatının əsas sahələrinə rəhbərlik etmiş A.Serebrovskiy, A.Barinov, İ.Zeynalov, P.Qulbis və A.Slutski kimi şəxslər də repressiyalara məruz qalmışdır. Repressiyaların həcmi çox olduğundan məhkəmə işlərini əsasən rəhbər vəzifələrdə çalışan şəxslərdən ibarət “üçlüy” adlanan qruplar həyata keçirirdi. “Xalq düşməni” elan edilən şəxslər yalnız özləri deyil, yaxın qohumları, dostları və əməkdaşları da ittiham olunaraq ciddi cəzalarla üzləşirdilər. Məsələn, R.Axundov və H.Sultanovla bağlı

uydurma “əksinqilabçı-terrorçu mərkəz” işində 1700 nəfər, “Azneft”də süni şəkildə yaradılmış əksinqilabçı təşkilat işi ilə bağlı 3300 nəfər, Xəzər Gəmiçiliyi İdarəsinin 200 rəhbər işçisi müxtəlif cəzalar almışdı. 1937-ci ilin payızında isə İsmayıllı rayonunun Kürdmaşı kəndindən 67 nəfər heç bir əsas olmadan həbs edilmişdi. Bu şəxslər ittiham olunmuş, işgəncələr vasitəsilə etiraflar almağa çalışılmış, onların ailə üzvləri isə təhqir və iztirablara məruz qalmışdılar. “Üçlüyün” qərarı ilə 63 nəfər edam edilmiş, dörd nəfər isə uzun müddət azadlıqdan məhrum edilmişdi. Məlumdur ki, 1936-cı ilin oktyabrından 1938-ci ilin iyuluna qədər Azərbaycan SSR-də 25 222 nəfər həbs edilmişdir və onların 13 356-sı azərbaycanlı idi. Lakin repressiyaların təsiri bundan daha geniş olmuşdur. Həbs olunanların yaxın qohumları və ailə üzvləri də cəzalandırılmış, ölkənin şimal bölgələrinə və Orta Asiyaya sürgün edilmişdilər. Bütün bunlar nəzərə alındıqda, 1937–1938-ci illərdə repressiyaların ümumi miqyası 80 mindən çox insanı əhatə etmişdir. Bu tədbirlər yalnız Azərbaycanla məhdudlaşmırdı; onlar bütün Sovet İttifaqı üzrə həyata keçirilən genişmiqyaslı terror siyasətinin bir hissəsi idi və hər respublikada miqyas, xarakter və sərtlik baxımından fərqli cəhətlərə malik idi. 1936-cı ildən başlayaraq Stalin rejimi Azərbaycan ziyalılarına qarşı genişmiqyaslı repressiyalara başladı. Bu proses 1937-ci ildə ən yüksək nöqtəsinə çatdı və 1938-ci ilə qədər eyni qətiyyətlə davam etdi. Sonrakı illərdə də kütləvi həbslər davam etsə də, yaxınlaşan müharibə şəraiti bir qədər situasiyanı dəyişdirdi və rəhbərliyin diqqətini əsas prioritetdən yayındırdı. Azərbaycanda “xalq düşmənlərinə qarşı mübarizə” adı altında aparılan bu əməliyyatlar eyni zamanda digər məqsədləri, xüsusilə millətin genofondunun zəiflədilməsini hədəfləyirdi. XI ordunun Hərbi İnqilabi Şurası və yenicə yaradılmış Sovet hakimiyyəti fəaliyyətlərinin ikinci günündə “Müsavat” və “İttihad” partiyalarının rəhbərləri ilə əməkdaşlıq sazişi bağlamışdı. Lakin bu müqavilə tezliklə Pankratovun rəhbərlik etdiyi XI ordunun Xüsusi şöbəsi tərəfindən pozuldu. Daha sonra Fövqəladə Komissiya (FK-ÇK) ölkədə kütləvi həbslərə başladı və qısa müddət ərzində həbs düşərgələri Azərbaycanın qabaqcıl ziyalıları ilə doldu. 1936-cı ilin noyabr ayında trotskiçilikdə, müsavatçılıqda və casusluqda ittiham olunan bir sıra tanınmış kommunistlər XDİK tərəfindən həbs edilmişdir. Hətta Bağırovun şəxsi katibi Nikişov da “Müsavat agenti” və “terrorçu” adı ilə saxlanılmışdı. Azərbaycan Dövlət Universitetinin rektoru Balabəy Həsənbəyov, “Azərnəşr”in direktoru İbrahim Eminbəyli, tanınmış etnoloqlar və professorlar A.S. Bukşpan və Nikolayev, eləcə də Mübariz Allahsızlar İttifaqının sədri və ədib Vəli Xuluflu partiyadan çıxarılaraq həbs olunmuşdular. Eyni zamanda, kəndlərdə “üsyançı” qruplar fəaliyyət göstərməyə başlamışdı. “Dekabrda repressiyalara artıq rayon rəhbərləri də məruz qaldılar. XDİK Naxçıvanda bütün partiya rəhbərliyini həbs etdi, Naxçıvanın partiya bölgə komitəsinin birinci katibi M.Mehdiyev isə məhkəmə qarşısına çıxarıldı və “düşmən və cinayətkar elementlərlə əlaqələr” ittihamı ilə

edam edildi. Əli Bayramlı, Göyçay, Qazax, Qasım İsmayılov, Qonaqkənd, Lənkəran, Noraşen, Samux, Suraxanı və Şamxor rayonlarının katibləri də onun ardınca repressiyaya məruz qaldılar. 1937-ci ilin əvvəlində bir qrup partiya rəhbərləri və sovet işçiləri siyasi xarakterli cinayət məsuliyyətinə cəlb olundular. Həbs olunanlar arasında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin və Sovet İttifaqı Kommunist Partiyası Zaqafqaziya Diyar Komitəsinin keçmiş katibi Ruhulla Axundov da var idi" [2, s.14].

**Nəticə.** 1930–1940-cı illərdə Azərbaycan SSR-də aparılan sovet repressiyaları və sürgünlər ölkənin siyasi, sosial və mədəni həyatına dərin təsir göstərmişdir. Bu illərdə minlərlə ziyalı, dövlət və partiya xadimi, elm və mədəniyyət nümayəndəsi saxta ittihamlarla həbs edilmiş, edam olunmuş və ya uzaq bölgələrə sürgün edilmişdir. Repressiyalar yalnız konkret şəxslərə deyil, onların ailə üzvlərinə və yaxın qohumlarına da şamil olunmuş, bu isə genişmiqyaslı psixoloji və sosial dağıntılara səbəb olmuşdur. Sovet hakimiyyətinin tətbiq etdiyi bu terror siyasəti Azərbaycanın intellektual potensialını zəiflətdi, milli elitanın böyük hissəsini məhv etdi və ölkənin iqtisadi-mədəni inkişafını ləngitdi. Repressiyalar həmçinin Azərbaycan cəmiyyətində qorxu və güvən əskikliyi yaratdı, xalqın gündəlik həyatına və ictimai münasibətlərinə mənfi təsir göstərdi. Ümumi şəkildə Stalin repressiyalarının nəticələrinə nəzər salsaq aşağıdakıları qeyd edə bilərik:

1. İ.V. Stalinin yeganə hakimiyyəti tam şəkildə möhkəmləndi və hərtərəfli nəzarət quruldu.
2. Ölkədə sərt və totalitar bir idarəetmə sistemi yaradıldı.
3. Sovet hakimiyyətinin əleyhdarları, ordu işçiləri və çox vaxt günahsız şəxslər, ailə üzvləri və yaxın qohumları ilə birlikdə repressiyalara məruz qalaraq, böyük hissəsi həyatını itirdi.
4. Sovetlər tərəfindən qurulan dövlət sistemi məcburi əməyin tətbiq edildiyi düşərgələr vasitəsilə effektiv olaraq quldarlıq münasibətlərinə çevrildi.
5. Əmək münasibətləri sərtləşdirildi və "qulaq" hesab olunan məhbuslardan geniş şəkildə məcburi əməyin istifadəsi baş verdi.
6. Köhnə partiya və sovet elitası köklü şəkildə kriminal elementlərlə əvəz olundu.
7. İnsanların öz fikrini açıq deməsi onların və yaxınlarının ciddi təhlükəyə məruz qalmasına səbəb olurdu.
8. SSRİ vətəndaşlarının qanunla təsbit edilmiş hüquq və azadlıqları praktikada təmin edilmirdi; qanunlar yalnız formal xarakter daşıyırdı və real həyatda tətbiq olunmurdu.

Bütün bunlar göstərir ki, 1930-1940-cı illərin repressiyaları yalnız bir siyasi təzyiq üsulu olmayıb, həm də milli genofondun zəiflədilməsi və cəmiyyətin ideoloji nəzarət altına alınması

məqsədini daşıyırdı. Bu dövrün dərindən öyrənilməsi Azərbaycan tarixindəki faciəli səhifələrin anlaşılması və gələcək nəsillərin məlumatlandırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**

1. Azərbaycanda Stalin repressiyaları, (2019), Azərbaycan, 5 oktyabr, s. 10
2. Azərbaycanda siyasi repressiyalar vətənpərvər ziyalılarımızın həyatına son qoydu, (2022), Azərbaycan, 27 yanvar, s. 7
3. Baratov F., (2018), Bir daha repressiya haqqında, Hüriyyət, 7 sentyabr, s. 14
4. Fərəcova Z., (2022), Sovet hakimiyyətinin repressiya siyasətinin Şuşa faciələri…, Azərbaycan, 6 aprel, s. 7
5. Mirişli E., (2023), Azərbaycanda 1920–1950-ci illər repressiyaları, Türküstan, 15–21 avqust, s. 7
6. Müharibə ərəfəsində Azərbaycanda repressiya, (2020), Azərbaycan, 9 iyun, s. 7
7. 1937-ci ildə fikir və söz azadlığına qarşı terror: Repressiya görkəmli alimləri, şair və yazıçıları məhv elədi. I yazı, (2014), Uğur (Xalq Cəbhəsi qəzeti), 10 yanvar, s. 11
8. 1937-ci ildə fikir və söz azadlığına qarşı terror: Repressiya görkəmli alimləri, şair və yazıçıları məhv elədi. II yazı, (2014), Uğur (Xalq Cəbhəsi qəzeti), 14 yanvar, s. 11

## SOVIET REPRESSIONS AND DEPORTATIONS IN AZERBAIJAN

**N.A. Rahmanova**
Azerbaijan University, Jeyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract.** After the establishment of Soviet rule in Azerbaijan, the new regime initially sought to eliminate political opponents and later restricted any independent thought and activity in society by implementing methods of totalitarian governance. The most severe manifestation of this policy was the mass repressions and deportations that intensified between the 1930s and 1950s. The targets of these repressions included not only state officials and politicians, but also intellectuals in science, culture, and education, as well as ordinary people engaged in agriculture and entire families. They were falsely accused and arrested under labels such as “enemy of the people,” “anti-Soviet element” or “nationalist.” Thousands of people were either executed or deported to Siberia and Central Asian regions.

**Keywords:** Soviet, Azerbaijan, “Red Terror,” repression, Stalin.